ədalət 2019.- 25 may.- S.11.

# "CƏHƏNNƏMƏ ATILMIŞLAR"

## Yeni kitab barəsində oxucu sözü

**Bu günlərimin yaddaqalan məqamlarından biri də ayın ilk günündən bu yazını diqtə etdiyim ana qədər mənə təqdim olunmuş yeni kitablardı. Ayrı-ayrı müəlliflərin ayrı-ayrı mövzularda, həm də janrlarda qələmə aldıqları kitablarını mənə hədiyyə etməsi çox sevindiricidi. Həm də ona görə ki, bu gün iqtisadi durum kitabları əldə etməyə müəyyən problem yaradır. Elə kitabların özünün də müəlliflər tərəfindən şəxsi vəsaitləri ilə işıq üzü görməsinin özü də bir problemdi. Bu mənada kimdənsə kitab hədiyyə almaq həqiqətən də oxuyan, mütaliə edən adam üçün yaxşı bir hədiyyədir.**

Bəli, ötən həftə mənə bağışlanan və bu ilin nəşri olan "Cəhənnəmə atılmışlar" hekayələr kitabı tərtibatına və nəşriyyat-poliqrafiya işinə görə, dərhal diqqətimi çəkdi. Görünür, kitabı tərtib edənlər, onun nəşrinə cavabdeh olanlar oxucunun zövqünü və kitabın reklamını yaxşı düşünüblər. Kitabın müəllifi oxucularımızın imzasını yaxşı tanıdığı Salatın Əhmədlidi. Yeri gəlmişkən, onu da xatırladım ki, çox hörmətli yazıçı-publisist, filologiya üzrə dəyərli alimlərimizdən olan Salatın xanım özünün hər yeni kitabını mənə hədiyyə edir. Və buna görə ona fürsətdən istifadə edib təşəkkürümü bildirirəm. O ki, qaldı "Cəhənnəmə atlmışlar"a...

Bir oxucu kimi öncə onu deyə bilərəm ki, kitabdakı hekayələrin demək olar ki, böyük əksəriyyəti günümüzün reallığıyla, Azərbaycan insanının durumu və əhatə olunduğu mühitlə bağlıdı. Yəni fikrimi bir az da açıqlasam deyə bilərəm ki, hekayələr min bir gecə nağılları kimi bir-birinin ardınca oxucu qarşısında insan mənzərələrini açır. Yazıçının bizə təqdim etdiyi cəhənnəm məkan olaraq (dini baxımdan biz insanların yaratdığı cənnət-cəhənnəm mifindən fərqli olaraq- Ə.M.) hamının, hər kəsin məlumatlı, bilgili, xəbərdar olduğu gerçək həyat reallığıdır və əsrədə hətta ünvanlarını bildiyimiz Cəhənnəmdən gedir söhbət. O cəhənnəmdən ki, onun rəsmi adı həbsxana, xalqın yaddaşındakı adı isə türmə və yaxud da zindandı.

Bir yazıçı olaraq Salatın xanım kitabının qəhrəmanları ilə




oxuculara təqdim etdiyi obrazlarla təmas qurmaq, onları qaranlıq dünyadan işıqlı dünyaya çıxarmaq üçün jurnalist olur. Və jurnalist kimi həmin o cəhənnəm adlandırdığı həbsxanada dustaq, məhkum qadınlarla görüşür. Bax, elə hekayələr də bir-birinin ardınca bu haqlı-haqsız məhkum edilmiş insanların taleyinin ifadəsinə çevrilir. Yəni əvvəldə dediyim kimi, az qala nağılvari bir şəkildə jurnalist xanım öz qəhrəmanlarının "saqqızını" oğurlayıb onları danışdırır, onların kimliyini oxucuya catdırır.

Yazı üslubu və hekayələrin yığcamlığı baxımından Salatın Əhmədlinin bu kitabı da onun növbəti uğurudu. Düşünürəm ki, məhz bu cür yığcam, lokonik və həm də həyat gerçəkliyinə söykənən faktların bədiiləşdirilməsi, onun insanlara çatdırılması, gənc nəslin milli mənəvi dəyərlər üzərində sağlam və dözümlü böyüyüb tərbiyə olunmasında öz sözünü deyə bilər.

**Mən Azərbaycan qadınlarının məhkum həyatının cizgilərini özündə ifadə edən bu hekayələrin, bütövlükdə kitabın oxucuların marağına səbəb olacağına inanıram.**

**Əbülfət MƏDƏTOĞLU**